Abbaszadə N.M.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.6-11
UOT342.7

# Avropa məkanına inteqrasiya prosesində Azərbaycan Respublikasında viza sisteminin sadələşdirilməsinin əsasları

**Xülasə:** Məqalədə, Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasındakı münasibətlərdən, Azərbaycan Respublikasının Avropa məkanına inteqrasiya prosesindən, bu prosesin Azərbaycanın gələcək demokratik inkişafı və rifahı üçün çox mühüm əhəmiyyət kəsb etməsindən danışılmışdır.

Bundan başqa, geosiyasi baxımdan təhlükəli ərazidə yerləşən Azərbaycan Respublikasında miqrasiya proseslərinin tənzimlənməsi üçün viza sisteminin liberallaşdırılmasının (viza rəsmiləşdirilməsinin sadələşdirilməsinin) vacib şərtlərindən bəhz edilmişdir.

Habelə, Avropa İttifaqının tələblərinə uyğun olmaq üçün Azərbaycan Respublikasının davamlı olaraq həyata keçirdiyi bir sıra hüquqi islahatlar, ratifikasiya etdiyi bir çox beynəlxalq hüquq normaları və qəbul etdiyi milli qanunvericilik aktları təhlil edilmişdir.

**Açar sözlər:** Avropa İttifaqı; viza sisteminin liberallaşdırılması; miqrasiya; readmissiya.

XXI əsr dünyada yeni inteqrasiya qruplarının, həm regional, həmdə beynəlxalq təşkilatların yaranması, yeni çağırışların, yeni texnologiyaların, inteqrasiya birliklərinin əsri hesab edilir. Hesab edirik ki, bu fikirlər müstəqil və azad Azərbaycanın xarici iqtisadi strategiyası və siyasətində də, açıq şəkildə özünü biruzə verir. Azərbaycanın hərtərəfli və çoxsahəli inteqrasiya siyasəti zaman keçdikcə beynəlxalq aləmdə nüfuzumuzu daha da artırır və gücləndirir. Məhz bu inteqrasiya faktorları arasında Avropa İttifaqına yaxınlaşma və əlaqələrin gücləndirilməsi, yaranmış fərqliliklərin və problemlərin aradan qaldırılması Azərbaycan üçün şübhəsizdir ki, çox əhəmiyyətlidir. Buna görə də, **"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasının** əsas məqsədlərindən biri Azərbaycanı öz dəyərlərimizin bazasında İEÖ-yə çevirməkdən ibarətdir [1]. Bu gün Azərbaycanın Avropa ilə əlaqələrinin güclənməsi geoiqtsadi və geosiyasi potensiyalını en yüksək səviyyədə həyata keçirməyə imkanyaradır. Hazırda Avropa İttifaqına (Aİ) daxil olan ölkələrin əldə etdiyi böyük nailiyyətləri bunun əsas isbatı kimi göstərmək olar. Məhz buna görə Avropa İttifaqına daxil olan ölkələr ilə geniş əlaqələrin yaradılması, həm dünyada, həm də regionda iqtisadi vəsiyasi nüfuzumuzun artması deməkdir.

Bu xüsusda viza liberallaşdırılması (viza rəsmiləşdirilməsinin sadələşdirilməsi) Aİ-na inteqrasiya prosesi üçün çox böyük addımdır. Viza liberallaşdırılması iqtisadı inteqrasiyanı sürətləndirəcək, Azərbaycanın Avropa bazarına çıxışını asanlaşdıracaq və yeni ticarət və investisiya imkanlarını təşviq edəcəkdir. Bu həmçinin insanlar arasında ünsiyyəti artıracaq hansı ki, Azərbaycan üçün çox əhəmiyyətlidir.

♦ **Abbaszadə Nigar Mütəllim qızı -** AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun Əcnəbilərin hüquqları və miqrasiya söbəsinin böyük elmi işçisi, Sumqayıt Dövlət Universitetinin dissertantı (Azərbaycan). E-mail:abbaszade1988@gmail.com

Bildiyimiz kimi viza liberallaşdırılması prosesinin başlanması üçün ilkin əsas şərt **Avropa Qonşuluq Siyasəti Fəaliyyət Planının** qüvvədə olmasıdır. Azərbaycan Respublikası Avropa Qonşuluq Siyasətinə daxil edildikdən sonra 14 noyabr 2006-cı ildə Brüsseldə Azərbaycan Respublikası-Avropa İttifaqı Əməkdaşlıq Şurasının iclası zamanı Azərbaycan Respublikası - Avropa İttifaqı Fəaliyyət Planı qəbul edilmişdir. Siyasi, təhlükəsizlik, iqtisadi, sosial, hüquqi, ticarət, mədəni, miqrasiya və s. sahələrə dair ikitərəfli əməkdaşlığı əhatə edən Fəaliyyət Planın uğurla həyata keçirilməsi Azərbaycana Aİ-nin daxili bazarına girmək və müxtəlif proqramlarda iştirak etmək hüququ vermişdir. Azərbaycan bu proqramlarda iştirak etmək üçün ilkin şərtlərə cavab vermək potensialına malik bir ölkədir.

Onuda qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası viza sisteminin liberalaşdırılması üçün bir çox beynəlxalq hüquq normalarına qoşulmuş və bu barədə bir çox milli qanunvericilik aktları qəbul edilmişdir. İlk öncə milli qanunvericilik aktalarına nəzər yetirək. 14 iyun 1994-cü ildə qəbul olunmuş **“Pasportlar” haqqında Qanun** Azərbaycan Respublikasının vətəndaşına ümümvətəndaş pasportu, diplamatik pasport və xidməti pasportun verilməsi qaydalarını tənzimləyir. Pasport ölkə ərazisindən kənarda vətəndaşın şəxsiyyətini təsdiq edən, habelə ona ölkədən getmək və ölkəyə gəlmək hüququnun həyata keçirilməsi üçün verilən vahid sənəd hesab edilir [6].

Bildiyimiz kimi, şəxsiyyət vəsiqələri, pasport-viza və digər sərhədkeçmə sənədləri hüquq mühafizə və digər aidiyyəti dövlət orqanları tərəfindən "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi vasitəsilə elektron qeydiyyata alınır. Qeyd etmək lazımdır ki, **“Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi”** haqqında Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2008-ci il tarixli 744 №-li Fərmanı ilə təsdiq edilmiş **Əsasnamə** qəbul olunmuşdur. Bu Əsasnamədə Azərbaycan Respublikasının digər qanunlarında və sənədlərində müəyyən edilmiş ən son şəxsiyyəti müəyyən edən biometrik texnologiyaları fəal şəkildə cəlb etmək nəzərdə tutulur [5].

Əsasnamə "Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin” aidiyyəti dövlət orqanları və qurumları tərəfindən əlaqələndirilmiş qaydada istifadəsinin, informasiya resurslarının formalaşdırılmasını, uzlaşdırılmasını, aparılmasını, inkişaf etdirilməsini və informasiya təhlükəsizliyinin hüquqi, təşkilati və texnoloji əsaslarını müəyyən edir.

Oda qeyd edilməlidir ki, Avropa Birliyinə inteqrasiya üçün ölkələrin miqrasyia proseslərini tənzimləyən məsələlər üzrə fəaliyyətləri intensivləşdirilməlidir.

Miqrasiya siyasətini Azərbaycan Respublikasında Dövlət Miqrasiya Xidməti həyata keçirir. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikası Prezidentinin 19 Mart 2007-ci il tarixli 560 №-li Fərmanına əsasən formalaşdırılmışdır. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti miqrasiya sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra orqanıdır və idarəetmə və miqrasiya proseslərinin tənzimlənməsi üzrə səlahiyyətləri Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində müəyyən edilmişdir [2].

Ümumiyyətlə, Dövlət Miqrasiya Xidmətinin formalaşdırılması, “Bir pəncərə” sisteminin həyata keçirilməsi, qaçqın və immiqrasiya statusunun asanlaşdırılması sahəsində təcrübə formalaşdırılması üzrə uğur kimi qiymətləndirilə bilər.

Bundan başqa, Azərbaycan Respublikası BMT-nin transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan, miqrantların quru, dəniz və hava yolu ilə transmissiyasına qarşı miqrasiya proseslərini tənzimləyən və vacib sənədlərdən biri olan əlavə protokolu təsdiq etdi. Habelə, Azərbaycan və Avropa Birliyi arasında uzunmüddətli müzakirələrdən sonra Azərbaycan

Respublikası readmissiya sazişləri haqqında danışıqlara başladı. Belə ki, 2014-cü il fevralın 28-də Brüssel şəhərində **"Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında" saziş** imzalandı [3]. Bu saziş Azərbaycanın və ya Avropa İttifaqı üzv dövlətlərinin birinin ərazisinə daxil olmaq, oradaqalmaq və ya yaşamaqla bağlı şərtlərinə əməl etməyən və ya bu şərtləri artıq yerinə yetirməyənşəxslərin müəyyən edilməsini, təhlükəsiz və nizamlı şəkildə qayıtmalarını, əməkdaşlıq ruhunda bu cür şəxslərin tranzitini asanlaşdırmağı tənzimləyir.

Sazişin başlıca prinsipi ondan ibarətdir ki, tənzimlənməyən miqrasiyanın qarşısının alınması və onunla mübarizə üzrə əməkdaşlığı gücləndirərkən, sorğu edilən və sorğu edən dövlət, bu sazişin onun əhatə etdiyi şəxslərə tətbiqi zamanı, aşağıda sadalanan müvafiq beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərə və eləcə də insan hüquqlarına hörməti təmin etməlidirlər: **1948-ci il Ümumdünya insan hüquqları Bəyannaməsi; 1950-ci il İnsan hüquqları və əsas azadlıqlara dair Avropa Konvensiyası və onun protokolları; 1966-cı il Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Pakt; 1984-cü il İşgəncə əleyhinə BMT Konvensiyası; 1951-ci il Qaçqınların statusuna dair Cenevrə Konvensiyası və onun 1967-ci il Protokolu.** Sorğu edilən dövlət, yuxarıda sadalanan beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərinə uyğun olaraq, xüsusilə onun ərazisinə readmissiya olunan şəxslərin hüquqlarını qorumağı təmin edir. Sorğu edən dövlət, şəxsin sorğu edilən dövlətə qayıtmasına maneə yaranacağına inanmağa hər hansı bir səbəb mövcud deyilsə, məcburi qayıdışdansa könüllü qayıdışa üstünlük verməlidir.

Readmissiya sazişi əcnəbinin qeyri-leqal vəziyyətdə olduğu hər hansı ölkədən və ya tranzit kimi istifadə etdiyi digər ölkədən qaytarılması prosedurlarını müəyyənləşdirən imzalı sazişdir. Readmissiya sazişlərinin imzalanması ölkənin öz vətəndaşlarının qanunla qorunan hüquq və azadlıqlarına qarantiya verilməsi və beynəlxalq səviyyədə onların qaytarılmasının sertifikat və identifikasiya sənədi ilə təmin edilməsi deməkdir. Belə sazişlərin imzalanması avtomatik olaraq Avropa Birliyi ilə viza rejiminin sadələşdirilməsinə pozitiv təsir edir. Misal üçün, Avropa Birliyinə üzv ölkələr və Rusiya Federasiyası arasında belə bir sazişin imzalanması viza qiymətlərində azalma ilə nəticələndi. Bundan əlavə, Rusiya Federasiyasının vətəndaşlarına müvafiq şərtlərlə bəzi qonşuluqdakı ölkələrə vizasız giriş-çıxış imkanları təklif olundu. Hesab edirik ki, qeyri-leqal miqrantların sayını azaltmaqdan ötrü, Azərbaycan Respublikası vətəndaşları tez-tez Azərbaycana səfər edən Mərkəzi Asiya ölkələri ilə də belə sazişlər imzalamalıdır.

Bundan basqa, **"Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında"** 2013-cü il noyabrın 29-da Vilnüs şəhərində saziş imzalanmışdır [4]. Bu saziş İttifaq və Azərbaycan Respublikası vətəndaşları üçün vizaların rəsmiləşdirilməsinin qarşılılıq prinsipi əsasında sadələşdirilməsi vasitəsilə iqtisadi, humanitar, mədəni, elmi və digər əlaqələrin davamlı inkişafı üçün vacib şərt olan insanlar arasında təmasların asanlaşdırılmasını tənzimləyir.

**Biblioqrafiya**

1. "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası. [Elektron mənbə]. URL: https://economy.gov.az/ media/pdf/inkishaf-konsepsiya-2020.pdf. (müraciət tarixi: 28.01.2021).

2. "Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin yaradılması" haqqında Azərbaycan Respublikası Prezidentinin 19 mart 2007-ci il tarixli 560 №-li Fərmanı. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/12885 (müraciət tarixi: 19.01.2021).

3. “Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında icazəsiz yaşayan şəxslərin readmissiyası haqqında” 28 fevral 2014-cü il tarixli saziş. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/alpidata/framework/data/ 27/f_27934.htm (müraciət tarixi: 19.01.2021).

4.“Azərbaycan Respublikası və Avropa İttifaqı arasında vizaların rəsmiləşdirilməsinin sadələşdirilməsi haqqında” 29 noyabr 2013-cü il tarixli saziş. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/alpidata/framework/data/ 27/f_27472.htm (müraciət tarixi: 22.01.2021).

5. “Giriş-çıxış və qeydiyyat idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sistemi” haqqında Azərbaycan Respublikası Prezidentinin 22 aprel 2008-ci il tarixli 744 №-li Fərmanı. [Elektron mənbə]. URL: https://president.az/ articles/50615 (müraciət tarixi: 28.01.2021).

6. “Pasportlar” haqqında Azərbaycan Respublikasının 14 iyun 1994-cü il tarixli 813 № -li Qanunu. [Elektron mənbə]. URL: http://www.e-qanun.az/framework/9008 (müraciət tarixi: 28.01.2021).

7. https://az.wikipedia.org/wiki/Şengen- razılaşması

8.http://iom.az/publications/files/Handbook_Eur_Law_Relat_Asylum_Borders_Immigration_AZ.pdf

9.https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/avropa-qonsuluq-siyaseti-aqs

**Abbaszade N.M.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.6-11**
**UDC 342.7**

## Basics of visa simplification in the Republic of Azerbaijan in the process of integration into the European space

**Abstract**: The article discusses the relations between the Republic of Azerbaijan and the European Union, the process of integration of the Republic of Azerbaijan into the European space, the importance of this process for the future democratic development and prosperity of Azerbaijan.

In addition, important conditions for the liberalization of the visa system (simplification of visa procedures) for the regulation of migration processes in the Republic of Azerbaijan, located in a geopolitically dangerous area, were discussed.

In addition, a number of legal reforms implemented by the Republic of Azerbaijan to comply with the requirements of the European Union, many norms of international law ratified and national legislation adopted by it were analyzed.

**Keywords:** European Union; visa liberalization; migration; readmission.

## References

1. “*Azerbaijan 2020: geleceye baxısh” Inkishaf Konsepsiyasi* [“Azerbaijan 2020: look at future”. Concept of development]. Available at: https://economy.gov.az/ media/pdf/inkishaf-konsepsiya-2020.pdf. (accessed 28.01.2021).

♦ **Abbaszade Nigar Mutallim –** Research Fellow of the Department of Foreigners’ Rights and Migration of the Institute of Law and Human Rights of the National Academy of Sciences of Azerbaijan, a dissertator of the Sumgait State University (Azerbaijan). E-mail:abbaszade1988@gmail.com

2. “*Azerbaijan Respublikasi Dovlet Miqrasiya Xidmetinin yaradilmasi” haqqinda* Azerbaijan Respublikasi Prezidentinin 19 mart 2007-ci il tarixli 560 №-li Fərmani. [Decree of the President of Azerbaijan Republic “On establishing of the State Migration Service” No. 560 of 19.03.2007]. Available at: http://www.e-qanun.az/framework/12885 (accessed 19.01.2021).

3. “*Azerbaijan Respublikasi ile Avropa Ittifaqi arasinda icazesiz yashayan shehslerin readmissiyasi haqqinda*” *28 fevral 2014-cu il tarixli sazish* [Agreement between Azerbaijan Republic and European Union “On Readmission of the persons residing without authorisation” of 28.02.2014]. Available at:_http://www.e-qanun.az/alpidata/framework/data/ 27/f_27934.htm (accessed 19.01.2021).

4.“*Azerbaijan Respublikasi ve Avropa Ittifaqi arasinda vizalarin resmileshdirilmesinin sadeleshdirilmesi haqqinda*” 29 noyabr 2013-cu il tarixli sazish [On ratification of “Agreement on simplification of the visa regime between Azerbaijan Republic and European Union” of 29.11.2013]. Available at:_http://www.e-qanun.az/alpidata/framework/data/ 27/f_27472.htm (accessed 22.01.2021).

5. “*Girish-chixish ve qeydiyyat idarelerarasi avtomatlashdirilmish melumat-axtarish sistemi” haqqinda* Azerbaijan Respublikasi Prezidentinin 22 aprel 2008-ci il tarixli 744 №-li Fermani [Decree of the President of Azerbaijan Republic “On the interdepartmental automated information retrieval system “Entry-exit and registration”]. Available at:_https://president.az/ articles/50615 (accessed 28.01.2021).

6. “Pasportlar” haqqinda Azerbaijan Respublikasinin 14 iyun 1994-cu il tarixli 813 №-li Qanunu [Law of the Republic of Azerbaijan “On Passports” No. 813 of 14.06.1994]. Available at: http://www.e-qanun.az/framework/9008 (accessed 28.01.2021).

7. https://az.wikipedia.org/wiki/Şengen- razılaşması

8.http://iom.az/publications/files/Handbook_Eur_Law_Relat_Asylum_Borders_Immigration_AZ.pdf

9.https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/avropa-qonsuluq-siyaseti-aqs

**Аббасзаде Н.М.**♦

**DOI: 10.25108/2304-1730-1749.iolr.2021.63.6-11**
**УДК 342.7**

## Основы упрощения визового режима в Азербайджанской Республике в процессе интеграции в Европейское пространство

**Аннотация:** Рассматриваются отношения между Азербайджанской Республикой и Европейским Союзом, процесс интеграции Азербайджанской Республики в европейское пространство, важность этого процесса для будущего демократического развития и процветания Азербайджана.

♦ **Аббасзаде Нигяр Муталлим кызы –** научный сотрудник отдела «Права иностранцев и миграция» Института права и прав человека НАНА, диссертант Сумгаитского государственного университета (Азербайджан). E-mail:abbaszade1988@gmail.com

Кроме того, были обсуждены важные условия либерализации визовой системы (упрощение визовых процедур) для регулирования миграционных процессов в Азербайджанской Республике, находящейся в геополитически опасной зоне.

Кроме того, был проанализирован ряд правовых реформ, осуществленных Азербайджанской Республикой с целью соответствия требованиям Европейского Союза, многие международные законы ратифицированы и приняты национальным законодательством.

**Ключевые слова:** Европейский Союз; либерализация визового режима; миграция; реадмиссия.

**Библиография**

1. «Азербайджан 2020: взгляд в будущее» [Электронный ресурс]. Режим доступа: https://economy.gov.az/ media/pdf/inkishaf-konsepsiya-2020.pdf. (на азерб. яз.) (дата обращения: 28.01.2021).

2. Указ Президента Азербайджанской Республики «О создании Государственной миграционной службы» от 19 марта 2007 г. № 560. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/12885 (на азерб. яз.) (дата обращения: 19.01.2021).

3. Соглашение «О реадмиссии лиц, проживающих без разрешения между Азербайджанской Республикой и Европейским Союзом» от 28 февраля 2014 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/alpidata/framework/data/ 27/f_27934.htm (на азерб. яз.) (дата обращения: 19.01.2021).

4. О ратификации «Соглашения об упрощении визового режима между Азербайджанской Республикой и Европейским Союзом» от 29 ноября 2013 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/alpidata/framework/data/ 27/f_27472.htm (на азерб. яз.) (дата обращения: 22.01.2021).

5. Указ Президента Азербайджанской Республики «О межведомственной автоматизированной информационно-поисковой системе «Въезд-выезд и регистрация» № 744 от 22 апреля 2008 г. [Электронный ресурс]. Режим доступа: https://president.az/ articles/50615 (на азерб. яз.) (дата обращения: 28.01.2021).

6. Закон Азербайджанской Республики «О паспортах» № 813 от 14 июня 1994 г. [Электронный ресурс]. Режим доступа: http://www.e-qanun.az/framework/9008 (на азерб. яз.) (дата обращения: 28.01.2021).

7. https://az.wikipedia.org/wiki/Şengen-razılaşması

8.http://iom.az/publications/files/Handbook_Eur_Law_Relat_Asylum_Borders_Immigration_AZ.pdf

9.https://minenergy.gov.az/az/beynelxalq-teskilatlarla-elaqeler/avropa-qonsuluq-siyaseti-aqs